# 2021-ci il

## ➢ YANVAR

# YANVAR

**2 yanvar** Rober Osseynin ailəsinə dünya teatr və kino sənətinin görkəmli nümayəndəsi, aktyor, ssenarist, rejissor Rober Osseynin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

**3 yanvar** Ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökumətinin sədr müavini, Rusiya-Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuk arasında görüş keçirilmişdir.

**11 yanvar** **Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvada işgüzar səfərdə olmuşdur.**

Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilmişdir.

Üçtərəfli görüşdən sonra Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış etmişdilər.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə ikitərəfli görüşü olmuşdur.

**12 yanvar** İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya Cakarta şəhəri yaxınlığında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar başsağlığı vermişdir.

Qazaxıstan Respublikasının birinci Prezidenti – Elbası “Nur Otan” Partiyasının Sədri Nursultan Nazarbayevə Lideri olduğu “Nur Otan” Partiyasının Qazaxıstanda keçirilmiş parlament seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik məktubu göndərmişdir.

Sadır Japarova Qırğız Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir.

**13 yanvar** ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.